# 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günüdür

İyun ayının 1-nin Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi qeyd olunması 1 iyun 1950-ci ildə BMT Baş Assambleyası tərəfindən qərara alınıb. Həmin gün təşkil olunan "Qadınların Beynəlxalq Konfransı"nda uşaq hüquqlarının təmin edilməsi ilə bağlı təkliflər səslənib və elə həmin tədbirdə də 1 iyun tarixini uşaqların beynəlxalq müdafiəsinə həsr etmək qərarı verilib. Bundan sonra iyunun 1-i Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi tarixə düşüb. Dünyanın əksər ölkələrində olduğu kimi, bu gün Azərbaycanda da qeyd edilir.

## Şəfalı bitkilər

# Çobanyastığı

Ölkəmizdə çobanyastığının bir çox növləri yayılıb. Adi çobanyastığı yabanı halda düzənliklərdə, səhralıqlarda və quru yerlərdə bitir.



Hündürlüyü 15-30 sm-ə qədər olan çobanyastığı birillik ot bitkisidir və may-sentyabr aylarında çiçək açır. Bitki xoş ətirli iyə malikdir. Dilşəkilli çiçəkləri saat 4-də üfüqi istiqamət alıb açılır, saat 7-də yumulur.

Çobanyastığının çiçəklərindən dünyanın əksər ölkələrində müalicə-profilaktik və kosmetik məqsədlərlə istifadə edilir. Ləçəkləri dəmləmə, bişirmə, toz və digər şəkildə ayrıca və yaxud mürəkkəb qarışıqların tərkibində tətbiq olunur. Təzə hazırlanmış dəmləməsi yaxud bişirməsi antiseptik, antiiltihab, spazmolitik, ağrıkəsici, antiallergetik, sakitləşdirici vasitə kimi mədə - bağırsaq, dəri, ağız boşluğu, tənəffüs yolları, qadın xəstəlikləri və digər xəstəliklər zamanı tətbiq olunur.

Bu bitkidən hazırlanan preparatlar qaraciyər və öd yolları xəstəlikləri, sarılıq zamanı öd axarlarının spazmasını aradan qaldırır, öd axınını gücləndirir, iltihabı azaldır.

Çiçəklərinin dəmləməsindən həm də irinli yaraların, xoraların yuyulmasında, göz xəstəliklərinin müalicəsində istifadə edilir.

Müalicə məqsədləri üçün çəmən çobanyastığını çiçək açan dövrdə toplayırlar. Onun çiçəklərinin 1 xörək qaşığına 200 ml qaynar su əlavə edilməsi tövsiyyə olunur. Xora xəstəliyində təzəcə hazırlanmış dəmləməsini hər səhər içmək lazımdır.

Çobanyastığı yağından həm də ağrıkəsici vasitə kimi istifadə edirlər. Xüsusilə uşaq və körpələrin qarın ağrısı zamanı çobanyastığı yağının isidilib qarının masaj edilməsi çox faydalıdır.

Çobanyastığının qaynadılaraq buxarı ilə tənəffüs edilməsi soyuqdəyməyə və sinüzitə, çay kimi içilməsi isə bağırsaq qazlarını azalmasına təsir edir.

# İdman xəbərləri

## «Qəbələ»dən 2 oyunda 4 xal



"Qəbələ"nin U-17 komandasının da iştirak etdiyi 66-ci Kvarnerska Riviyera turnirinə start verilib. Xorvatiyanın Riyeka şəhərində təşkil olunan yarışda hər komanda U-18-in üç üzvündən də yararlanmaq hüququna malikdir. "Qəbələ" qrup mərhələsinin ilk turunda Sloveniya təmsilçisi "Domjale" ilə qarşılaşıb. Görüş qolsuz bərabərliklə başa çatıb. İkinci oyununu "Omişal"a qarşı keçirən "qırmızı-qaralar" meydanı qələbə ilə tərk edib - 2:0. Komandamızın qollarına Kamran Quliyev və Məhəmməd Abbasli imza atıb. İlk iki turdan sonra 4 xala malik "Qəbələ" 2-ci pillədə qərarlaşıb. "Osiyek"in 6, "Domjale"nin 1 xalı varsa, "Omişal" hər iki matçda uduzub.

## Qəbələnin U-16 komandası mükafatlandırıldı

AFFA-nın təşkil etdiyi U-16 Liqasında 2017/18 mövsümünə yekun vurulub. Qızıl medalları yarış başa çatmamış təmin edən "Qəbələ" son turda "Neftçi" İK İB ilə qarşılaşıb. Matç 2:2 hesabı ilə yekunlaşıb.

Görüşdən sonra Qəbələ şəhər stadionunda liqanın qalibinə qızıl medal və kubok təqdim edilib. Liqanın ən yaxşı futbolçusu adına "Qəbələ"nin oyunçusu Veysəl Rzayev layiq görülüb. Daha bir futbolçumuz Vüsal Şabanov isə ən yaxşı qapıçı üçün təsis olunan mükafata yiyələnib.

## Məhkəmə hakimlərinin şahmat turniri keçirilmişdir

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubleyi tədbirləri çərçivəsində Qəbələ rayon məhkəməsinin, həmçinin Qəbələ Rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin təşkilatçılığı ilə Qəbələ rayon UGİŞM-də Respublika məhkəmə hakimlərinin şahmat turniri keçirilmişdir. Bayram əhval-ruhiyyəsi ilə keçirilən ölkə turnirində hakimliyi uşaq-gənclər idman-şahmat məktəbinin məşqçi-müəllimləri etmişlər.

Gərgin keçən şahmat mübarizəsində dördüncü turdan sonra Respublika turnirinin nəticələrinə görə I yerə Ali Məhkəmənin hakimi İlqar Dəmirov, II yerə Bakı Apellyasiya Məhkəməsinin hakimi Rafael Eyvazov, III yerə Bakı Hərbi Məhkəməsinin hakimi Elbəy Allahverdiyev, IV yerə Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Rasim Sadıxov layiq görülmüşlər.

**Ədalət ƏLİYEV,**
**Qəbələ Rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin direktoru.**

# Maraqlı faktlar

1. Bəşər tarixində ən qəribə edam üsulunu qədim misirlilər fikirləşiblər.

Burada insanları yuxudan məhrum etməklə onların ölümünə səbəb olurmuşlar.

2. Ağ ayıların hamısı solaxaydır.

3. Təyyarədə uçan zaman insanın saçı ikiqat sürətlə uzanmağa başlayır.

4. Dağ qazları 10 kilometr hündürlükdə uça bilən az sayda quşlardandır.

5. Rusiyanın ən uzun - Botov mağarasının 60 kilometr uzunluğu vardır. O İrkutsk vilayətində, Lena çayının hövzəsində yerləşir.

6. Rusiyanın Yaroslavl şəhərində buraxılan həftəlik «Severnıy kray» qəzeti 1905-1909-cu illər ərzində 42 dəfə adını dəyişib.

7. Kanada yerli hindu qəbilələrinin dilində Böyük kənd deməkdir.

8. Dünya əhalisinin yarısı düyü ilə qidalanır.

9. Pişiklərin hər qulağında 32 əzələ var.

10. Hər qarışqa yuvasının öz xüsusi qoxusu var.

# İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **Sadıqov Asəf Xalis oğluna** verilmiş JN seriyalı 1782 F nömrəli (kod 40601004) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 22 noyabr 1997-ci il tarixli 25 saylı qərarı ilə Mıxlıqovaq kənd sakini **Salamov Səxavət Salam oğluna** verilmiş JN seriyalı 191 nömrəli **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Məmmədağalı kənd sakini **Niftalıyev Ağaqulu Ağa oğluna və ailə üzvlərinə** verilmiş JN seriyalı 0044 nömrəli (kod 40603048) **torpağa mülkiyyət hüququna dair dövlət aktı** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **Hacıyeva Zenfira Qərib qızına və ailə üzvlərinə** verilmiş JN seriyalı 270 F nömrəli (kod 40601004) **torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.


QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2018-ci ilin ikinci yarısı üçün abunə yazılışı davam edir

Yarımillik abunə qiyməti 15 manatdır.

Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.
Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti
205-19-14, 205-15-56


# ALLAH RƏHMƏT ELƏSİN!

Qəbələ Rayon İcra Hakimiyyəti Aparatının kollektivi iş yoldaşları **Azər Şirinova** atası

**ŞİRİN MÜƏLLİMİN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı Aparatının kollektivi iş yoldaşları **Elçin Tağıyevə** yaxın qohumu

**VAQİF MUSAYEVİN**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

---

Nicat Apayev adına Qəbələ şəhər 4 nömrəli tam orta məktəbin kollektivi iş yoldaşları **Səmayə Hacıyevaya** qardaşı

**ŞAKİR MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

«Qəbələ» qəzetinin kollektivi iş yoldaşları **Varis Yaqubova** yaxın qohumu

**ŞAKİR HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Emin Baratoğlu keçmiş sinif yoldaşı

**ŞAKİR HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun əzizlərinə, yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Sevil Talıbova, Sədaqət Bayramova, Rəna Mahmudova, Səfayə Qafarova, Sənubər Əhmədova, Hicran Məmmədova keçmiş iş yoldaşları

**ŞİRİN ŞİRİNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


Redaktor
Varis Yaqubov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər
Məsul katib
Qüdrət Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az
Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Dizayner Rais Rəşidov
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
Tiraj 1769